# Ağcabədidə Ulu Öndərin zəngin irsindən danışılıb





Ağcabədidə "Heydər Əliyev İli" çərçivəsində konfrans keçirilib. İştirakçılar öncə Heydər Əliyevin həyat və fəaliyyətini əks etdirən foto, rəsm və kitablardan ibarət sərgi ilə tanış olublar.

Ümummilli Liderin xatirəsinə həsr olunmuş videoçarx nümayiş etdirildikdən sonra rayon icra hakimiyyətinin başçıcı Rafil Hüseynov milli özünüdərk və azərbaycançılıq məfkurəsinin formalaşmasında dahi liderin əvəzsiz xidmətlərindən danışıb. Məruzə ilə çıxış edən Azərbaycan Dövlət Pedaqoji Universitetinin Ağcabədi filialının direktor müavini, dosent Mahir Səlimov Ulu Öndər Heydər Əliyevin Azərbaycan xalqının taleyində oynadığı mühüm roldan, onun yorulmaz siyasi fəaliyyətindən geniş söz açıb. Bildirib ki, müasir, güclü Azərbaycanın qurulmasında, inkişaf etməsində dahi şəxsiyyətin misilsiz xidmətləri qədirbilən Azərbaycan xalqı tərəfindən həmişə yüksək qiymətləndirilib və Vətənini sevən hər kəsin yaddaşına həmişəlik həkk olunub. Sonra məruzə ətrafında çıxışlar olub. Çıxış edənlər Heydər Əliyev ideyalarının, uzaqgörən siyasətinin uğurlu nəticəsi kimi Azərbaycanın Avropa, eləcə də dünya arenasındakı hazırkı yüksək nüfuzundan və söz sahibi olmasından danışıblar. Eyni zamanda bildiriblər ki, nə qədər ki Azərbaycan xalqı var, dahi rəhbərə olan sonsuz sevgi və dərin ehtiram heç zaman azalmayacaq.

***Lazım QULİYEV,***
***"Azərbaycan"***

Azərbaycan.- 2023.- 1 aprel.- S.7.